**UOT 32**
**https://doi.org/10.30546/ifs.2024.2(43).022**

# BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ HƏRBİLƏŞMƏ AMİLİ

**Məhəbbət Seyidova**
Doktorant, Bakı Dövlət Universiteti, **Azərbaycan**
mahabbatseyidova78@gmail.com
https://orcid.org/0009-0000-1094-8477

**Xülasə.** Məqalədə hərbiləşmə siyasətinin məzmunu və onun müasir beynəlxalq münasibətlər sisteminin inkişafına təsiri təsvir edilir. İraq, Yuqoslaviya, Liviya və digər dövlətlərlə münasibətdə xarici təcavüzlərin ilkin şərtləri araşdırılır. Soyuq müharibənin qurtarmasından sonra hərbi güc amilinin təsirinin qalma səbəbləri qeyd edilir. Məqalədə müasir beynəlxalq siyasətə təsir etməyə davam edən müasir ictimai fikirdə militarizm və antimilitarizm arasında qarşılıqlı əlaqə nəzərdən keçirilir. Müasir militarizmin mənbələri və hərəkətverici qüvvələrinin, siyasətdə hərbi faktoru mütləqləşdirməyə çalışanların ideya müəllifləri və subyektlərinin təhlili verilir. XXI əsrin əvvəllərində militarist təzahürlərin səbəbləri və spesifikası, habelə müxtəlif ideoloji cərəyanların nümayəndələrinin reaksiyaları nəzərdən keçirilir. “İkiqütblü dünyanın” dağılması ilə hərbiləşmə prosesinin yeni mərhələyə qədəm qoyması, müxtəlif dövlət-siyasi quruluşa malik ölkələrin siyasi elitaları arasında hərbiləşmə potensialının qorunub saxlanması ilə bağlı arqumentlər gətirilir.

**Açar sözlər:** hərbiləşmə, beynəlxalq münasibətlər, beynəlxalq təhlükəsizlik, hərbi güc, milli təhlükəsizlik, militarizm, antimilitarizm

## ФАКТОР МИЛИТАРИЗАЦИИ В МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЯХ

**Махаббат Сеидова**

**Резюме.** В статье рассматривается политика милитаризации и ее влияние на развитие современной системы международных отношений. Исследуются совершения актов агрессии государств, отличающихся враждебной внешней политикой в отношении Ирака, Югославии, Ливии. Указываются причины сохранения влияния фактора военной мощи после окончания «холодной войны»; взаимодействие милитаризма и антимилитаризма в современном общественном мнении, которое продолжает влиять на современную международную политику. Приводятся аргументы относительно сохранения потенциала милитаризации среди политических элит стран с различным государственно-политическим устройством.

**Ключевые слова:** милитаризация, международные отношения, международная безопасность, военная мощь, национальная безопасность, милитаризм, антимилитаризм

## MILITARIZATION FACTOR IN INTERNATIONAL RELATIONS

**Mahabbat Seidova**

**Abstract.** The content of the policy of militarization and its impact on the development of the modern system of international relations have been described in the article. The initial conditions of foreign aggression in relation to Iraq, Yugoslavia, Libya and other states have been investigated. The reasons for maintaining the influence of the military power factor after the end of the Cold War have been mentioned. The article has been studying the interplay between militarism and antimilitarism in contemporary public opinion, which continues to influence contemporary international politics. An analysis of the sources and driving forces of modern militarism, its authors and subjects who try to make the military factor absolute in politics has been given. The causes and specifics of militaristic

manifestations at the beginning of the 21st century, as well as the reactions of representatives of various ideological currents, have been reviewed. With the collapse of the "bipolar world" the process of militarization has entered a new stage, arguments are given regarding the preservation of the potential for militarization among the political elites of countries with different state-political structures.

**Keywords:** militarization, international relations, international security, military power, national security, militarism, antimilitarism

## Giriş

Soyuq müharibənin qurtarması ilə dünya sivilizasiyasının post-industrial inkişaf mərhələsinə qədəm qoyması dünya siyasətinin tarixi boyunca mövcud olan beynəlxalq münasibətlərin hərbiləşməsi ənənəsinin qarşısını ala bilmədi. XXI əsrin ilk onilliyində hərbi güc dünya siyasətində problemlərin həllində prioritet vasitə olaraq qalmaqda davam edirdi. Hərbiləşmə faktoru müasir dövlətlərin xarici siyasət strategiyalarının formalaşmasında öz əhəmiyyətini qoruyub saxlamaqda idi. Hərbi güc/hərbi qüdrət hakim dairələrin siyasi iradəsinin reallaşmasında hal-hazırda prioritet olaraq qalmaqdadır. “Üçüncü dünya” ölkələrinin ənənəvi liderləri ilə yanaşı, liberal demokratik dövlətlərin nümayəndələri də hərbi gücə üstünlük verməkdədirlər.

Xarici siyasətdə rəqiblərinə qarşı qeyri-humanist təsir vasitələrindən istifadəyə yer qoymayan beynəlxalq münasibətlərdə prinsip etibarilə yeni dövrün başlanması barədə rəsmi bəyanatlara baxmayaraq, lokal müharibələr və silahlı münaqişələr dünyada siyasi proseslərin tərkib hissəsi olaraq qalmaqdadır. Hərbi-siyasi qarşıdurma tərəflərinin strateji məqsədi çox vaxt mütləq qələbənin əldə edilməsi deyil, müharibəni rəqibin mənəvi və iqtisadi potensialını sarsıdan daimi münaqişəyə çevirmək olur.

R.Bankerin “Epoxal dəyişiklik: sosial və siyasi təşkilatlara qarşı müharibə” [1, 12], R.Pitersin “Yeni döyüşçülər sinfi” [2, 72], C.Rasselin “Asimmetrik müharibə” [3, 27] adlı məqalələrində qeyd edilir ki, müəyyən siyasi məqsədləri olan iki dövlət və ya dövlətlər bloku arasında münaqişə qismində müharibə artıq keçmişdə qalıb. Onun yerinə “ölkə daxilində və beynəlxalq arenada dövlət siyasətinin məqsədləri naminə deyil, cəmiyyətin sosial və mədəni dəyərləri ətrafında cinayətkar qruplar və ya sindikatlar arasında qarşıdurmalar şəklində “xaos-müharibə” forması gəlir.

Lakin son hadisələr göstərir ki, dövlət təsisatları beynəlxalq münasibətlərdə hərbiləşmənin aparıcı aktorları olaraq qalmaqdadır. Bu proses ABŞ və NATO tərəfindən dünya terrorizmi ilə mübarizə adı altında görülən tədbirlərdən sonra yeni ifadə aldı və hərbiləşmənin ənənəvi məzmununu əhəmiyyətli dərəcədə dəyişdi. ABŞ-ın 1970-1980-ci illərin görkəmli siyasi xadimi U.Fulbraytın sözləri ilə desək, ABŞ-da artıq uzun illərdir ki dünyanın istənilən regionunda dərhal hərbi əməliyyatlar aparmağa hazır olan “daxili militarizm” formalaşıb [4, 11]. Digər araşdırmaçılar bu halı ifadə etmək üçün “yeni militarizm” terminindən istifadə edirlər. Hərbi qüdrət kultuna ilkin şərtlər Amerika cəmiyyətini fərqləndirirdi. Nəticə etibarilə, ölkənin “siyasi sinfi” arasında “köhnə qaydanı” hərbi gücün köməyilə ləğv etmək zərurəti barədə inam yarandı.

Məhz ABŞ siyasi elitasının nümayəndələri dünya miqyasında “Dördüncü dünya müharibəsi” adlandırdıqları silahlı zorakılığın yeni eskalasiyası barədə düşünmək imkanı verdilər. Dünyanın super güc-dövlətinin hərbi vəziyyətdə olmasını etiraf edən dəlilləri ABŞ MKİ-nin keçmiş direktoru D.Vulsinin Amerika hərbi kollecində 6 noyabr 2002-ci il tarixli çıxışında, habelə Kaliforniya universitetində 3 aprel 2003-cü il tarixli çıxışında görmək olar. Bir neçə nəslin həyatı boyu davam edəcək qlobal müharibənin başlanması ilə bağlı fikirlər ABŞ keçmiş vitse-prezidenti R.Çeyni tərəfindən də bildirilmişdir.

Avropa İttifaqı ölkələrində əhalinin pasifistliyi ittifaq ölkələrində hökumətlərin hərbi gücün gücləndirilməsinə yönələn real siyasətləri ilə ziddiyyət təşkil edir. Bir çox müşahidəçilər üçün 2011-ci ilin fevral-mart aylarında baş vermiş Liviya böhranı zamanı Fransanın nümayiş etdirdiyi mövqe gözlənilməz oldu. Məhz Fransa prezidenti N.Sarkozi son iki onillikdə bütün regional müharibələrdə həlledici rol oynayan anqlosakson dövlətlərin elitasını əvəz edərək Liviyaya xarici müdaxilənin təşəbbüskarı qismində çıxış etdi. Ümumiyyətlə, əvvəlki illərdə də Fransa üçün ənənəvi nüfuz dairəsi kimi baxdığı regionlarda milli maraqlarının təmin edilməsi məqsədilə silahlı qüvvələrdən istifadə

etmək xas idi. Söhbət ilk növbədə Kot-d’İvuar və “Qara Afrikanın” digər ölkələrində formal olaraq sülhməramlı kimi çıxış edən fransız silahlı qüvvələrinin hərbi əməliyyatlarından gedir.

Son illər Avropa ölkələrində öz şəxsi silahlı qüvvələrinin yaradılması barədə məsələ müntəzəm şəkildə qaldırılır. Lissabon müqaviləsi Avropa İttifaqının rəhbər orqanları arasında müdafiə sahəsində əməkdaşlıq üçün daimi strukturun yaradılmasını bəyan edir. Fransa prezidenti N.Sarkozinin planına görə, vahid hərbi infrastrukturun yaradılması, Avropa İttifaqı üzrə tərəfdaşlarının hərbi bazalarından istifadə, ümumavropa müdafiə sənayesinin yaradılması nəzərdə tutulurdu. Qeyd edilirdi ki, Fransa, Böyük Britaniya, İspaniya, Almaniya və İtaliya kimi ölkələrdə müdafiə xərclərinin səviyyəsi ÜDM-in 2%-indən az olmamalıdır.

Əvvəllər anti-hərbi status nümayiş etdirən ölkələrdə hərbiləşmənin artması müşahidə olunur. Almaniyanın və Yaponiyanın hakim dairələrində belə bir fikir formalaşıb ki, Almaniyanın Balkanlarda NATO əməliyyatlarında iştirakı, Yaponiyanın İraqın işğalında iştirak etməsi bu dövlətlərin beynəlxalq ictimaiyyətin tamhüquqlu üzvü kimi legitimləşdirilməsi instrumenti kimi çıxış etməlidir.

Lakin müasir hərbiləşmədə lider olaraq əvvəlki kimi ABŞ-ın hərbi-siyasi rəhbərliyi çıxış edir. Bu dövlətin təcavüzkar xarici siyasət kursu hələ II Dünya müharibəsi illərindən “beyin mərkəzləri” adlanan nüfuzlu və çox ciddi maliyyələşməyə malik ekspert təşkilatları tərəfindən işlənib hazırlanır. Beyin mərkəzləri (“think tanks”) termini amerikalı alim German Kan tərəfindən 1940-cı illərdə mülki mütəxəssislər və zabit heyəti arasında məsləhətləşmələrin aparıldığı yeri təyin etmək üçün istifadə edilmişdir.

“Yeni Amerika yüzilliyi layihəsi” adlı təşkilat 1997-ci ildə P.Vulfovits, R.Çeyni, D.Ramsfeld və ABŞ milli təhlükəsizliyinin təminatına görə məsul hərbi təşkilatlarda və orqanlarda sonradan rəhbər vəzifələr tutan digər siyasətçilərin müəllifliyi altında “Prinsiplər bəyanatı” adlı sənəd hazırlamışdı. Bu sənəddə əsas ideya “soyuq müharibə” dövrünə xas hərbi siyasət prinsiplərinə qayıtmaq idi. Qlobal raket əleyhinə müdafiə sisteminin yerləşdirilməsinin əsas təşəbbüskarı ABŞ müdafiə nazirliyinin podratçıları – maliyyə-sənaye korporasiyanın vəsaitləri hesabına dəstəklənən Təhlükəsizlik siyasəti üzrə Mərkəz hesab olunur.

**Hərbiləşmə siyasəti beynəlxalq təhlükəsizliyə təhdid kimi**

Müasir militarizm subyektləri arasında yalnız silahların tədarükündən gəlir əldə edən hərbi-sənaye konsernləri görkəmli yer tutmur. Silahlı zorakılığın tətbiqi təşəbbüsü çox vaxt xammal sahəsində mövcud şirkətlər tərəfindən gəlir. ABŞ və Böyük Britaniyanın neft hasil edən korporasiyaları milli hökumətlərin siyasətlərini öz maraqlarına tabe etdirməyə çalışan nüfuzlu təzyiq qruplarıdır. “Xammal faktoru” istisnasız olaraq müasir militarizmin bütün təzahürlərində özünü göstərməkdədir. Məhz neft ehtiyatları üzərində nəzarətə cəhd İran körfəzində 1991-ci ildə İraqın Küveytə təcavüz etməsini və 2003-cü ildə İraqa çoxmillətli koalisiyanın müdaxiləsini şərtləndirdi. Sovet qoşunlarının çıxmasından sonra xarici dövlətlərin Əfqanıstana müdaxiləsi ilkin olaraq Türkmənistandan nəzərdə tutulan qaz kəməri boyu marşruta nəzarətin tətbiqinə cəhd ilə diqtə edilirdi. Bolqarıstanın Burqas şəhərindən Albaniyanın Vlera şəhərinə AMBVO şirkəti tərəfindən Transbalkan neft kəmərinin çəkilməsi ideyası Kosovada münaqişəyə zəmin rolunu oynamışdı.

Qafqazda daimi hərbi konflikt və hərbi gərginlik Xəzər dənizinin neft ehtiyatları üzərində nəzarətin qurulması ilə bağlıdır. 2011-ci ildə Liviyaya böyük dövlətlərin hərbi müdaxiləsi bu ölkənin karbohidrogen ehtiyatları üzərində nəzarətin əldə edilməsi ilə bağlı idi. Dünyada neft və qaz hasilatında böyük paya malik olmayan Liviya coğrafi mövqeyinə görə gələcəkdə Aralıq dənizi boyu yerləşən dövlətlərin, ilk növbədə İtaliya və Fransa kimi ölkələrin iqtisadi inkişafının strateji resursu idi və ya ola bilərdi. Buna baxmayaraq M.Qəddafi rejiminin neft sahəsini iri transmilli hasilat şirkətlərinin xeyrinə özəlləşdirməkdən imtina etməsi Liviyaya növbəti xarici müdaxiləyə səbəb olmuşdu.

ABŞ-ın keçmiş prezidenti kiçik C.Buş tərəfindən “şər məhvəri”nə aid edilməyən İraq, İran, KXDR, habelə xarici müdaxilələrə məruz qalmış Yuqoslaviya, Liviya, Əfqanıstan hərbiləşdirilmiş cəmiyyətə malik idilər. Adıçəkilən ölkələrdə kifayət qədər silah ehtiyatları yığılmış və xarici siyasətdə görkəmli rol oynayan hərbi təşkilatlar yaradılmışdı. Bu adıçəkilən “hərbi dövlətlərin”

əksəriyyəti uzun illər onları silahlarla, o cümlədən kütləvi qırğın silahlarının istehsalı üçün texnologiya ilə təchiz edən Qərb dövlətlərinin ənənəvi tərəfdaşları idi. Digər tərəfdən, inkişaf etməkdə olan dövlətlər arasında münasibətlərdə münaqişə potensialı ziddiyyətlərlə, o cümlədən müstəmləkə dövlətlərinin öz keçmiş protektoratlarında qəsdən yaratdıqları ərazi ziddiyyətləri ilə şərtlənmişdi.

1950-1980-ci illərdə sosialist düşərgədə xüsusi statusu və Sovet İttifaqının xarici siyasət kursuna müxalif mövqeyi sayəsində Yuqoslaviya Qərb təsirinin orbitində yerləşirdi. Lakin inkişaf etməkdə olan dünyanın hərbi rejimləri və keçmiş Yuqoslaviyanın (daha sonra Serbiyanın) mötədil siyasi rəhbərliyi və ABŞ-ın iştirakıyla yaradılan əfqan talibləri yeni dünya hegemonlarının güc təzyiqinin obyektinə çevrildilər. Bunun üçün səbəb etnokonfessional münaqişələrdə öz əksini tapan daxili ziddiyyətlər və S.Hüseynin kütləvi qırğın silahına malik olması ittihamına oxşar tamamilə uydurulmuş bəhanələr olurdu. Lakin mövcudluğu Qərb liderlərinin strateji təsəvvürlərinə və yaxud mövcud xarici siyasi konyunkturaya uyğun gələn avtokratik rejimlər tamamilə cəzasız qalırdılar.

Görünür, ayrı-ayrı dövlətlər və ya beynəlxalq münasibətlərin qeyri-dövlət aktorları ilə münasibətdə hərbi aksiyaların əsas səbəbi qabaqcıl hərbi dövlətlərin müasir dünyanın siyasi məkanını maksimum dərəcədə birləşdirmək, inkişaf etmiş müdafiə potensialının köməyilə öz şəxsi milli maraqlarını təmin etmək potensialına malik liderləri sıxışdırmaq idi.

**Hərbiləşmənin legitimləşdirilməsi**

Beynəlxalq münasibətlərdə militarist aksiyaların qanuniləşdirilməsi üsulu çox aydındır. Birinci mərhələdə gələcək təcavüz obyektinin ünvanına açıq-aydın qəbuledilməz tələblər irəli sürülür. İkinci mərhələdə BMT Təhlükəsizlik Şurası kimi beynəlxalq təşkilatlardan hərbi gücün məhdud tətbiqi ("uçuşa qadağan zonaların təmini", "döyüşən tərəflərin ayrılması" və s.) ilə bağlı sanksiyaların əldə edilməsi həyata keçirilir. Üçüncü mərhələdə hücum edən tərəfin real hərəkətləri ona verilən səlahiyyətlər çərçivəsindən kənara çıxır və ya müdaxilənin davam etdirilməsinə sanksiya verməyən beynəlxalq təşkilatların rəyi nəzərə alınmır. 2011-ci ilin yazında Liviyada vəziyyət qeyd edilən ssenari üzrə cərəyan edirdi. BMT TŞ-nın 1973 nömrəli qətnaməsinə uyğun olaraq hökumət qüvvələrinin yaşayış məntəqələrinə aviasiya hücumlarının qarşısını almaq üçün icazə alan koalisiya qoşunları rəsmi əməliyyatın səlahiyyətləri çərçivəsindən kənara çıxdılar. Raket bomba zərbələri yalnız liviyalıların aviasiya və havadan müdafiə qüvvələrinə qarşı deyil, həm də onların quru qüvvələrinin dəf edilməsinə qarşı endirilirdi. 2011-ci il martın 27-dən 28-nə keçən gecə əməliyyatların aparılması səlahiyyətinin böyükmiqyaslı müdaxilənin təşkilinə yönələn Şimali-Atlantika İttifaqına ötürülməsi bəyan olundu ki, bu da BMT-nin qərarı ilə nəzərdə tutulmurdu.

Dördüncü mərhələ təcavüzün nəticələrinin beynəlxalq ictimaiyyət tərəfindən tanınmasını təşkil edir. Bu məqsədlə işğalçı qüvvələrin tərkibi əvvəllər bitərəf mövqe tutan dövlətlər hesabına genişləndirilir. Həmçinin özəl hərbi şirkətlərin və firmaların cəlb edilməsi baş verir. Belə bir təəssürat yaranır ki, beynəlxalq ictimaiyyət son onillikdə baş vermiş iri militarist aksiyaların qarşısını almaq iqtidarında olmayıb. Zorakılığın məhdud tətbiqinə yönələn BMT TŞ-nin sanksiyaları bir çox hallarda zorakılığın daha da artması üçün zəmin yaradırdı.

**Birqütblü və çoxqütblü dünya**

Beynəlxalq siyasətin əsas vasitələrindən biri kimi, silahlı zorakılıqdan imtina barədə təxəyyülün yaranmasına səbəb olan "soyuq müharibə"nin qurtarması hərbi faktorun siyasi prosesdən çıxarılmasına gətirib çıxarmadı. Dünya birliyi beynəlxalq münasibətlərin subyektləri arasında qarşılıqlı əlaqələrin yeni qaydasının qurulması zərurəti ilə üzləşmişdi. Müxalif dövlət koalisiyaları arasında gərgin hərbi-siyasi qarşıdurmanın adətən bir sıra taleyüklü görüşlər və konqreslərlə yekunlaşdığı əvvəlki dövrlərdən fərqli olaraq, XX əsrin sonunda yeni dünya liderlərinin statusu hüquqi cəhətdən təsbit olunmamışdı. "Soyuq müharibə"nin bitməsi ilə dünyada qüvvələrin yerdəyişməsi baş verdi, hərbi-siyasi ittifaqların və blokların konfiqurasiyası dəyişdi, beynəlxalq münasibətlərin subyektləri arasında bir çox əvvəlki hüquqi və qeyri-formal razılaşmalar fəaliyyətini dayandırdı. Orta və kiçik dövlətlərin dünya güc qütblərinə tabeliyi artmaqdadır [5, 10 -13]. Qeyri-

dövlət aktorların təsiri güclənməkdədir və bu öz əksini milli dövlətlərin suverenliyinin azalmasında tapır.

Beynəlxalq təhlükəsizliyin vəziyyətini müəyyən edən başlıca tendensiyalar o oldu ki, dünyada “birqütblü” və “çoxqütblü” tendensiyalar arasında toqquşma oldu. Mövcud vəziyyət elmi dairələrdə müxtəlif mövqelərdən izah edilir. “Çoxqütblü dünya” konsepsiyası həm dəstəklənir, həm də tənqid edilir. Bir sıra alimlərin fikrincə, çoxqütblü beynəlxalq münasibətlər sistemi qlobal və regional təhlükəsizliyə müsbət təsbir göstərmək iqtidarındadır. Bəziləri isə hesab edirlər ki, “çoxqütblülük” zorakılığın eskalasiyasına səbəb olur, yeni müharibə və silahlı münaqişə formalarını yaradır. Belə bir fikir mövcuddur ki, çoxqütblü dünyanın reallığa çevrilməsi üçün heç bir şans yoxdur, çünki ABŞ real və ya mümkün rəqiblərinin resursrlarından və imkanlarından daha üstün hərbi və iqtisadi potensiala malikdir. Öz hökmranlığını gücləndirmək məqsədilə ABŞ-ın rəhbər dairələri beynəlxalq hüquq normalarını və BMT-nin rəyini nəzərə almadan silahlı zorakılıq vasitəsini seçirlər [ 6, 112].

Dünya hökmranlığına can atan digər namizədlərin beynəlxalq strategiyalarının mahiyyətini qiymətləndirərkən nəzərə almaq vacibdir ki, xarici elmi dairələrdə bu prosesə militarizm (hərbiləşmə) amilinin ciddi təsiri barədə fikir yayılıb. Misal üçün, Amerika tədqiqatçısı E.Basseviçin fikrincə, ABŞ-nin siyasi elitasının nüfuzlu hissəsi ənənəvi dünya qaydasını hərbi gücün köməyilə ləğv etməyə cəhd göstərir [7, 2]. E.Basseviç hesab edir ki, ABŞ ictimai rəyi üçün səciyyəvi olan “Vyetnam sindromu” 1991-ci ildə İran körfəzində uğurlu əməliyyatdan sonra aradan qaldırıldı. Amerika silahının triumfu fonunda ABŞ milli düçüncəsinin yenidən hərbiləşdirilməsi prosesi başladı. “Yeni Amerika militarizmi” demokratiyanın məcburi ixracına yönələn “demokratik beynəlmiləlçi-lik/müdaxiləçilik” siyasətinin nəticəsi kimi çıxış edir. Balkan yarımadasında və Şimali Afrikada baş verən hadisələr göstərdi ki, NATO-nun Avropadan olan üzv-dövlətləri ABŞ qədər təcavüzün baş qaldırmasında az rol oynamadılar. Hərbi güc Avropa İttifaqı dövlətlərinin xarici siyasət strategiyasının ayrılmaz hissəsinə çevrilməkdədir [8, 2].

**Militarizm (hərbiləşmə)**

Militarizm (hərbiləşmə) dedikdə, daha aktual xarici siyasət ziddiyyətlərinin həlli məqsədilə beynəlxalq münasibətlərin subyektləri tərəfindən silahlı zorakılığın tətbiqinə səbəb olan hərbi, sosial-iqtisadi, hüquqi və ideoloji tədbirlər məcmusu olan sistem nəzərdə tutulur. Eyni zamanda hərbiləşdirmə prosesi adı altında bir-birilə qarşılıqlı əlaqədə olan, lakin müstəqil olan iki halı nəzərə almaq məqsədəuyğundur.

Birincisi, ənənəvi təfsirdə hərbiləşmə - beynəlxalq siyasəti silahlı mübarizənin tələblərinə tabe etdirmək prosesidir, başqa sözlə desək, beynəlxalq münasibətlər sisteminin hərbi üslubda yenidənqurulmasıdır. İkincisi, hərbi mənşəli prinsiplər, metodlar və texnologiyalar məqsədyönlü və ya kortəbii olaraq müdafiə sferasından kənarda yayıldıqda, beynəlxalq münasibətlərin konkret subyektinin xarici siyasət kursunun əsasını təşkil etdikdə militarizasiya (hərbiləşdirmə) siyasətə əks-təsir göstərir.

Hərbiləşmə siyasətinin nəticəsi olaraq, ABŞ-ın keçmiş prezidenti kiçik C.Buş dövründə İraqa qarşı təcavüz, Əfqanıstandakı terrorizm əleyhinə əməliyyatın müstəmləkə müharibəsinə çevrilməsi, silahlanma yarışının gücləndirilməsi və Şimali Atlantika müqaviləsi təşkilatının “ikili genişləndiril-məsi” oldu. Lakin Şimali Atlantika blokunun nümayəndələrinin rəhbərliyi altında “yeni dünya qay-dası” nın məcburi qaydada qurulması strategiyası fiaskoya uğradı. Bu, yeni hərbiləşmə mərhələsinin başlanğıcına səbəb idi və dövlətlər, onların koalisiyası, hətta qeyri-dövlət aktorları bu siyasətə qarşı çıxırdılar. B.Obamanın prezidentlik dövrü açıq hegemon başlanğıc olmadan beynəlxalq sistemdə liderliyə doğru yenidən istiqamətlənmə ilə müşayiət olundu. Lakin əvvəlki kimi, ABŞ-ın və Qərbi Avropa dövlətlərinin rəhbər dairələri arasında militarizm potensialına tələbat vardı. Bunun “modifikasiya olunmuş” militarizmin bariz nümunəsi Yaxın Şərqdə vəziyyəti ciddi şəkildə qeyri-sabit edən Liviya və Suriyadakı legitim rejimlərin devrilməsinə yönələn kampaniyalar idi.

Müasir hərbiləşmə mərhələsinin əsas ilkin şərtləri özünü demokratik dünyanın liderlərinə aid edən dövlətlərin siyasi elitası arasında yaranmışdır. Sovet İttifaqının dağılması və onun hərbi təşkilatının ləğvi əsas amil olmuşdur və “qalib sindromu” kimi ifadə olunan bir stereotip yaranmışdır. Uzun illər ərzində “soyuq müharibə”nin səbəb olduğu fobiyalar ilə şərtlənən, daima mənəvi-psixoloji

gərginlik vəziyyətində olan Şimali Atlantika blokunun hərbi-siyasi rəhbərliyi SSRİ-nin dağılmasını obyektiv şəraitin axarı kimi deyil, öz zəfər səylərinin nəticəsi kimi qəbul etdi. Digər tərəfdən, sovet hərbi-siyasi blokunun dağılmasını Qərb demokratiyasının hərəkətlərinin nəticəsi kimi təqdim edən döyüşkən siyasi elitalar öz dövlətlərinin ictimai rəyi üçün çoxsaylı bəhanələr gətirə bilirdilər. Beynəlxalq münasibətlərdə aqressiv metodları inkar edən siyasi qüvvələr özlərini dünya sivilizasiyasını kommunist totalitarizmi təhdidindən “xilas edənlər” kimi təqdim edən hərbiləşmə siyasətinin tərəfdarlarına qarşı əks-arqumentlər gətirə bilmirdilər. Aparıcı dünya dövlətlərinin “müharibə partiyaları” beynəlxalq münasibətlər strategiyasının reallaşması məqsədilə hərbi potensialdan istifadə üçün bir növ indulgensiya əldə etdilər.

Qeyd etmək lazımdır ki, qlobal hegemonluğun “yumşaq” və ya “sərt” variantlarda qurulması cəhdləri dünya ictimaiyyətinin böyük hissəsinin müqaviməti ilə üzləşir. “Yeni dünya qaydasına” bilvasitə və ya bilavasitə müxalif mövqe yalnız ABŞ-ın inkişaf etməkdə olan ölkələrdəki ənənəvi rəqibləri tərəfindən deyil, həm də Şimali Atlantika blokunun müttəfiqləri hesab edilən regional ölkələr tərəfindən də sərgilənir. “Vahid Avropa” ölkələrinin NATO ilə münasibətdə muxtar statusa malik öz hərbi təşkilatını yaratması cəhdləri bunun bariz nümunəsidir.

Hərbiləşmənin yaranmasına tək ABŞ və Qərbi Avropa məsuliyyət daşımır. İnkişaf etməkdə olan ölkələrin siyasi elitaları da öz milli təhlükəsizliklərinin gücləndirilməsi aləti kimi baxdıqları hərbiləşməyə müraciət edirlər. Ən geniş yayılmış tendensiya milli dövlətin yaradılması mərhələsində olan ikinci və ya üçüncü dünya ölkələrinin rəhbər dairələrinin xarici siyasət kursunun reallaşmasında hərbi gücə üstünlüyün verilməsidir. Legitimliyi dünya birliyi tərəfindən tanınması tələb olunan yeni yaranan dövlətlər beynəlxalq təhlükəsizlik üçün ciddi çağırışdır. Beynəlxalq siyasətin yeni subyektlərinin suverenliyinin tanınması uğrunda mübarizə dünyanın müxtəlif regionlarında münaqişələrin yaranma səbəblərindən idi. Dövlət təsisatları ilə yanaşı, müharibə və hərbi təcavüz ideyaları ilə çıxış edən şəbəkə tipli transmilli silahlı qruplaşmalar da az rol oynamırlar. Təcrübə göstərir ki, xarici siyasət strategiyalarının tərkib hissəsi olan militarizm bir neçə variantlarda təzahür edə bilər.

Qərbin demokratiya liderləri üçün öz işğalçılıq niyyətlərini “nəcib” göstərmək cəhdi xasdır, yəni hərbi əməliyyatları dünya terrorizmi ilə mübarizə, humanitar fəlakətlər və fövqəladə vəziyyətlərlə mübarizə adı altında beynəlxalq təhlükəsizlik problemlərinin həllinə yönəlmiş məcburi tədbirlər qismində göstərmək xarakterikdir. Üçüncü dünya ölkələrində hərbiləşmənin təşəbbüskarları öz ideyalarına malikdir. Onların liberal demokratiyadan, habelə geosiyasi ətrafındakı bilavasitə rəqiblərdən imtinası mümkün rəqib üzərində mənəvi və mədəni üstünlüyünün qorunub saxlanmasına əsaslanır.

Müasir beynəlxalq siyasətdə hərbiləşmənin üç təxmini variantını qeyd etmək məqsədəuyğundur. Onlardan birincisi postindustrial cəmiyyət səviyyəsinə çatan inkişaf etmiş dünya dövlətlərinə xasdır. Onları modernləşdirilmiş militarizm fərqləndirir və bir qayda olaraq, öz təcavüzkar aksiyalarına bəraət vermək üçün dolayı və humanitar motivli formalarda təzahür edir. Onlar xüsusi və təxribatçı əməliyyatların, iqtisadi və hüquqi sanksiyaların və informasiya-psixoloji təsirin köməyilə genişlənmə məqsədinə nail olurlar. Hərbi gücdən istifadə mümkündür, lakin sülhməramlı və ya humanitar yardımın göstərilməsi adı altında həyata keçirilən “hərbiyəoxşar” aksiyalara üstünlük verilir. Buna görə də Qərb dövlətlərinin rəsmi hərbi doktrinalarında hərbi əməliyyatların məqsədləri radikal şəkildə dəyişilmişdir. Qoşunların göndərilməsində tək hərbi deyil, həm də siyasi vəzifələr qoyulur: düşməni məğlub etmək yerinə, onu mülki əhalinin dəstəyindən məhrum etmək və onun etimadını qazanmaq tələb olunur. Demokratik dövlətlərin hərbi qulluqçuları, həmçinin “keçid” rejiminə malik dövlətlərin timsalında onların müttəfiqləri əvvəllər nizami ordulara xas olmayan funksiyaların yerinə yetirilməsinə daha çox istiqamətlənirlər. Xarici ölkələrdə ekspedisiya qüvvələrinin qalmasının məqsədləri dəyişir, misal üçün, hibrid “hərbi-mülki” aksiyalar “sabitləşmə üzrə əməliyyatlar”, “sülhə məcburetmə”, “sülhə keçid”, “sülhün qorunması” və “dövlətin sosial-siyasi sisteminin yenidən qurulması” adı altında həyata keçirilir.

Hərbi kontingentlərin missiyası hədsiz ideolojiləşdirilmişdir: düşməni məğlubiyyətə uğratmaqla yanaşı, onlardan işğal edilmiş ərazilərdə qaliblər üçün münasib olan siyasi rejimlərin və idarəetmə sistemlərinin qurulması tələb olunur. “Münaqişədən sonrakı yenidənqurma və vəziyyətin

sabitləşməsi” üçün nəzərdə tutulan “sabitləşmə korpusunun” yaradılması cəhdləri göstərilir. Münaqişə regionlarında hərbi və diplomatik orqanların nümayəndələrini özündə birləşdirən “mobil inkişaf komandaları” da eyni rolu yerinə yetirməlidirlər. Onların fəaliyyətində məqsəd özündə sülhquruculuğunu və əks-terror əməliyyatlarının aparılmasını ehtiva edən təhlükəsizliyin qorunub saxlanmasıdır. Qərb dövlətlərinin hərbi qüvvələrinin köməyilə beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi adı altında konkret formal müstəqil dövlətdə dövlət quruluşu və sosial-siyasi münasiblətlər sistemi yenidən qurulur. İşğal edilmiş ölkələrdən öz hərbi qüvvələrini çıxardan Qərb dünyasının liderləri onların ərazisində Şimali Atlantika blokunun maraqlarına uyğun siyasi quruluşun qurulması səylərini yekunlaşdıracaq “hərbi-mülki missiyaların” fəaliyyətini gücləndirir.

Postindustrial dünyaya aid olmayan dövlətlər hərbiləşmiş dövlətlərin ikinci qrupunu təşkil edirlər. Bu ölkələrin rəhbər dairələri aparıcı dünya dövlətləri ilə qarşıdurmada onların məğlubiyyətini şərtləndirən hərbiləşmənin ənənəvi metod və üsullarından istifadə etməkdə davam edirdilər. Sosial münasibətlərin informasiyalaşdırılması və humanistləşdirilməsi imkanlarından istifadə edə bilməmək, surroqat və ya köhnəlmiş ideologiyaların yetişdirilməsi, xammal iqtisadiyyatına diqqətin yönəldilməsi ənənəvi militaristlərin hərbi təşkilatları ilə Avro-Atlantik koalisiya arasında qarşıdurmanın faydasızlığını müəyyən edir. Üstəlik, onlar bir vaxtlar SSRİ-nin rəhbərlik etdiyi sosialist bloku kimi dünya liderlərinin heç birinin ətrafında vahid siyasi düşərgə və ya birliyi təmsil etmirlər. Hərbiləşdirilmiş regional güclərin və ya kiçik dövlətlərin bəziləri yeni dünya hegemonlarına qoşulmağa müvəffəq oldular, sonuncuları ictimai rəydə qəbuledilməz olan beynəlxalq təhlükəsizliyə təsir üsullarına əl atmaq zərurətindən azad etdilər. Baxılan mövqe İran körfəzi monarxiya dövlətlərinin, İordaniya, Türkiyə, Pakistan və bir sıra digər ölkələrin hakim dairələrini fərqləndirir. Qismən industrial cəmiyyətə malik militarizm səviyyəsində qalan ölkələrin silahlı qüvvələri və xüsusi xidmət orqanları arxaik parahərbi qrupların, terror təşkilatlarının yatızdırılmasında görünməmiş hərbi gücə malik Qərb dövlətlərindən daha çox uğur qazandılar.

Qloballaşma çağırışlarına cavablar axtarmalı olan patriarxal cəmiyyətin ənənələri ilə bağlı olan qeyri-dövlət subyektləri müasir militarizmin üçüncü variantıdır. Təsadüfi deyil ki, ABŞ və onun müttəfiqlərinin silahlı təcavüzləri və “humanitar müdaxilələri” nəticəsində nizami ordulara əsaslanan nisbətən qərbləşmiş hərbi diktatorların yerini klan milisləri və ya terror qruplaşmalarının rəhbərləri tutur. Atlantik sivilizasiyanın mövcudluğu faktını qəbul etməyən aktorların dünyagörüşü və siyasi strategiyası regional və beynəlxalq təhlükəsizliyə birbaşa təhdid yaradan militarist və terror təzahürlərinin birləşməsinə ilkin şərait yaradır.

**Militarizm və antimilitarizm**

Militarizm və antimilitarizm ənənəvi olaraq ictimai və elmi müzakirələrdə antipod kimi çıxış edərək beynəlxalq siyasətin əsas problemlərindən birinə – xalqlar və dövlətlər arasında münasibətlərdə silahlı qüvvədən istifadə probleminə qütb ideoloji yanaşmaları simvolizə edirdi. Radikal ideologiyaları və cərəyanları təmsil edən zorakılıq tərəfdarları beynəlxalq siyasətdə hərbi faktoru fetişləşdirməyə meyilli idilər. Öz növbəsində, ənənəvi olaraq sülh və qeyri-zorakılıq ideyalarının beynəlxalq münasibətlərdəki problemlərin həlli üçün mənəvi əsas kimi təsiri güclü olmuşdur.Bu görüşlər əsasında daxili və dövlətlərarası ziddiyyətlərin həllində hərbi gücdən istifadəni rədd edən ictimai-siyasi fenomen – antimilitarizm yarandı.

Həqiqətən də, XXI əsrin ilk onilliyində militarizm və antimilitarizm ideyaları arasında qarşıdurma mövzusu öz əhəmiyyətini saxlayır. Buna obyektiv faktorlar da səbəb olur: qloballaşma kontekstində hərbi güc müasir dövlətlərin və çoxsaylı qeyri-dövlət aktorlarının xarici siyasət strategiyasının formalaşmasında prioritet olaraq qalmaqdadır. Son dövrədək hesab edilirdi ki, xarici siyasət problemlərinin həllində hərbi gücdən istifadənin tərəfdarları dünyanın bir çox ölkələrində silahlı “demokratiya ixracına” səbəb olan neo-mühafizəkarlardır. Misal üçün, britaniyalı alim E.Willyams 19-cu və 20-ci əsrin əvvəllərində Böyük Britaniyanın imperial liberalizmi ilə münasibətdə ABŞ-ın keçmiş prezidenti kiçik Corc Buşun prezidentliyi dövründə “mübariz Amerika liberalizmi”nin varisliyini vurğulamışdır [9, 12]. Faktiki olaraq, beynəlxalq siyasətdə hərbi aksiyaların tərəfdarları əvvəllər müharibə əleyhinə çıxış edənlər tərəfindən dəstəklənirlər. Əgər XX əsrin əvvəllərində Avropa sosialistləri və sosial-demokratları bir qayda olaraq, özlərinin xarici siyasət

doktrinalarının sülhpərvər, antimilitarist xarakterini vurğulayırdılarsa, hazırda vəziyyət dəyişib. Məhz sosialist hökumətlər ispan qoşunlarını İraqa, alman qoşunlarını isə Əfqanıstana göndərmişdilər. Mövcud şəraitdə hərbi güc üsulları sülhün möhkəmlənməsinə dəstək göstərən beynəlxalq təşkilatların alətlərinə çevrilirlər. Belə ki, Kot-d'İvuarda etnik münaqişə zamanı BMT Baş katibinin qərarı ilə beynəlxalq sülhməramlı qüvvələr silahı mübarizə iştirakçılarının birinin tərəfini birbaşa tutdular [10, 15].

“İkiqütblü dünya” tarixə qovuşduqdan dərhal sonra ilk dəfə belə bir tezis səsləndi ki, sülhməramlı əməliyyatlar bütün döyüşən tərəflərin fikrindən asılı olmayaraq aparıla bilər. Son iki onillik ərzində sülhməramlı və sülhə məcburetmə tədbirləri arasında fərq aradan götürülüb.

Müasir dövrün ən böyük hərbi-siyasi bloku olan – Şimali Atlantika blokunun rəsmi məqsədinin dəyişməsi səciyyəvidir. 1949-cu il Vaşinqton müqaviləsinə görə, təşkilat sırf müdafiə məqsədilə yaradılıb və müqaviləyə üzv-dövlətlərin sərhədlərindən kənar ərazilər onun məsuliyyət zonasına aid deyil. SSRİ və Varşava müqaviləsi timsalında əsas mümkün rəqib aradan qaldırıldıqdan sonra NATO-nun funksiyaları radikal şəkildə nəzərdən keçirilmişdir. Alyansda “missiyanin genişləndirilməsi” və “məsuliyyət zonasının genişləndirilməsi” məsələləri həll edilmişdir [11,1].

“Missiyanın genişləndirilməsi” dedikdə, ittifaqın müdafiə vəzifələrinin yenidən baxılması, ona vətəndaş müharibələrinə və etno-siyasi münaqişələrə müdaxilə etmək hüququnun verilməsi nəzərdə tutulurdu. “Məsuliyyət zonasının genişləndirilməsi” artıq alyansın üzvü olmayan dövlətlərin ərazisində hərbi iştirakının legitimliyini nəzərdə tuturdu.

XXI əsrin əvvəllərində Şimali Atlantika blokunun beynəlxalq arenada fəaliyyətinin nəticələri birmənalı qiymətləndirilə bilməz. Bir tərəfdən, Əfqanıstandakı və Liviyadakı əməliyyatlar göstərdi ki, ABŞ-ın rəhbər rolu olmadan NATO qarşıya qoyulan hərbi-siyasi vəzifələri müstəqil şəkildə yerinə yetirmək iqtidarında deyil. Digər tərəfdən, Avropa ölkələrində hətta silahlanma və maddi resursların çatışmazlığı, planlamada uğursuzluqlar, qeyri-kafi hazırlıq və qoşunların aşağı döyüş ruhu, vətəndaş etirazları Qərbin siyasi elitalarının beynəlxalq siyasətdə güc üsullarına meyil etməsinin qarşısını ala bilmir.

Mübahisəli beynəlxalq və daxili problemlərin hərbi güc üsulu ilə həllinin çoxəsrlik ənənəsi hərbiləşmənin yeni mərhələsinə səbəb ola bilər. Müasir hərbiləşmə təzahürlərinin kökü hələ “soyuq müharibə” dövründə qoyulub. İki fərqli ideologiyaya malik dünyanın iki böyük sosial-siyasi sistemləri arasında barışmaz mübarizə həm Qərbdə, həm də Şərqdə ictimai fikrin hərbiləşməsinə gəritib çıxardı. Dövlət təbliğat aparatının səyləriIə dəstəklənən döyüş ruhu “dəmir pərdənin” hər iki tərəfində geniş sosial təbəqələri əhatə etdi. Eyni zamanda böyükmiqyaslı dünya müharibəsi nəticəsində qələbənin mənasızlığını dərk etmək ictimai düşüncədə antimilitarizmə səbəb olurdu. Bu da nəticə etibarilə, “birqütblü dünyanın” qurulmasına gətirib çıxaran beynəlxalq arenada qüvvələr nisbətinin köklü dəyişilməsinə səbəb oldu. Şimali Atlantika bloku ölkələrinin siyasi və intellektual elitaları sovet hərbi-siyasi blokunun dağılmasından hiss etdikləri qələbə hissindən sanki eyforiyada idilər. ABŞ və SSRİ arasındakı yarıməsrlik qarşıdurmanı “Üçüncü dünya müharibəsi” kimi təfsir etməyə başladılar.

Postindustrial cəmiyyətdə müasir hərbiləşmənin qeyd-şərtsiz dəstəkləndiyini demək çətindir. Belə ki postindustrial cəmiyyət müxtəlif sosial qrupların, rəsmi və qeyri-rəsmi siyasi-ictimai hərəkatların, birliklərin və təşəbbüslərin konqlomeratından ibarətdir. Bir çoxları silahlı zorakılığı qəbul etmir, digərləri yalnız beynəlxalq hüquq normalarına uyğun hərbi gücdən istifadəni dəstəkləyirlər. Qeyd etmək lazımdır ki, bütün dünyada ictimai təfəkkürdə və dövlət idarəetməsində hərbiləşmə prinsiplərinin yayılması üçün sosial və ideya əsasları mövcuddur. Misal üçün, ABŞ-da daxili zorakılıq yüksək səviyyədədir, silahdan sərbəst istifadəni dəstəkləyən və milyonlarla üzvü olan ictimai təşkilatlar mövcuddur, bir sıra regionlarda döyüşçü protestantlıq ideyaları geniş yayılıb. Xarici siyasətdə aqressiv kursu dəstəkləməyə meyilli olan ABŞ-da şotland-irland sosial-mədəni icma böyük təsirə malikdir. Bir sıra qrupların və hərəkatların öz sosial-iqtisadi vəziyyətlərinə zorakı cavabı olan terroru da unutmaq olmaz.

Belə ki, fərqli xarici siyasət məqsədlərinə malik və bir-birilə rəqib olan, misal üçün, Rusiya və ABŞ beynəlxalq münasibətlərdə problemlərin həllində “hərbi ölçüyə” əsaslanan eyni metodologiyanı tətbiq edirlər. Əslində, sivil dövlətlərin siyasətində hərbi-güc komponenti hətta hüquqi normalar,

maddi amillər və hakim elitaların siyasi iradəsi ilə məhdudlaşsa belə, bəzi hallarda zəruri müdafiə ehtiyaclarından kənara çıxa bilər. Belə ki, hərbi faktor müxtar təzahür kimi deyil, müasir dövlətin xarici siyasət strategiyasının mürəkkəb konstruksiyasının elementi kimi özünü göstərir. XXI əsrdə aparıcı dünya dövlətlərinin mövqeyi resurslar və faydalar uğrunda qlobal mübarizədə üstünlüyə nail olmaqdır. Burada, ehtiyac olarsa, bütün vasitələrdən, o cümlədən silahlı mübarizədən istifadə oluna bilər. Müasir ictimai şüurun militarizasiyasının spesifikliyi, məncə, potensial düşmənin təkcə beynəlxalq siyasət subyektlərini deyil, həm də qeyri-maddi nizamın mücərrəd anlayışlarını və ya hadisələrini seçməsindən ibarətdir.Bununla bağlı ilk dəfə olaraq U.Ceyms tərəfindən təklif edilən “müharibənin mənəvi ekvivalenti” adlı termin maraq doğurur [13, 267-296]. Cəmiyyətdə döyüşkən əhval-ruhiyyənin olmasını hərbi ritorika, ümumiyyətlə, ölümcül zorakılıq və ya qantökmə elementləri olmayan bu cür rəqabət formalarına münasibətdə istifadə edilən hərbi metaforalar sübut edir. Antiqlobalizm ideoloqlarının vurğuladığı kimi, “müharibə” anlayışının şərti istifadəsi sosial fəaliyyətin müxtəlif növlərini fərqləndirən riskləri, rəqabət və münaqişə ruhunu aydınlaşdırmağa imkan verir. [14, 267-296]. Tam əsasla bu tezis beynəlxalq siyasətlə münasibətdə tətbiq oluna bilər.

“Müharibənin mənəvi ekvivalenti” termininin məzmunu cəmiyyətin səfərbərlik vəziyyətinə nail olmaq üçün müxtəlif növ fövqəladə halların süni şəkildə uydurulması və müasir dünya nizamının təhlükə və təhdidlərinin mütləqləşdirilməsi ilə bağlıdır. Adətən bu cür üsullardan cəmiyyəti real hərbi münaqişəyə hazırlamaq üçün istifadə edilir. Bunun bariz nümunəsi, ABŞ prezidenti kiçik C.Buş administrasiyası tərəfindən İraqın kütləvi qırğın silahına malik olması ilə bağlı yalan məlumatın verilməsi oldu və bu, ABŞ ictimai rəyi tərəfindən İraqa silahlı müdaxilənin təqdirinin əldə olunmasına səbəb oldu [15, 267-296].

Müasir dünyada bu cür praktika daha geniş tətbiq oluna bilər. Kənardan təkcə konkret dövlətdən deyil, həm də təbiətin kortəbii qüvvələrindən, narkotik vasitələrin qanunsuz dövriyyəsindən, miqrasiyadan və s.-dən gələn müəyyən təhlükənin olması ölkədə fərdlərin hüquq və azadlıqlarının ictimai münasibətlərdə nüfuzlu aktorların maraqlarının xeyrinə məhdudlaşdırılmasını əsaslandırmağa imkan verir.

Eyni zamanda beynəlxalq münasibətlərdə hərbiləşmənin dolayı formalarına qarşı əks mexanizmlər hələ yaradılmayıb. Piratlığa qarşı mübarizə beynəlxalq nəqliyyat yollarının hərbiləşdirilməsi məsələsini ortaya qoyur. Çox güman ki, 2009-2011-ci illərdə Somalidəki piratlıqla mübarizə, əslində, aparıcı dünya dövlətlərinin Afrika Buynuzu və Hind okeanında hərbi iştiraklarını legitimləşdirmək məqsədi daşıyırdı.

Beynəlxalq siyasətdə “müharibənin mənəvi ekvivalenti”ndən istifadə hazırda beynəlxalq hüquqa zidd olan olan hərbi aksiyalara vətəndaş cəmiyyətinin razılığını əldə etmək cəhdi ilə şərtlənib. Misal üçün, dünyanın hər hansı bir regionunda öz təsirini möhkəmləndirmək məqsədilə konkret ölkə təbii fəlakətlər (2009-cu ildə Haitidə baş vermiş zəlzələ buna misal ola bilər), piratlıq, aclıq, epidemiyalar, narkotik istehsalı ilə mübarizədən bir bəhanə olaraq istifadə edə bilər.

Beləliklə, XXI əsrdə siyasətin və ictimai şüurun hərbiləşməsi üçün səbəb artıq yalnız qarşıdan gələn müharibəyə hazırlıq deyil, həm də real və ya saxta ekstremal vəziyyətlərin aradan qaldırılması ehtiyacıdır və bütün bunları fransız filosofu J.Bodriyar “simulyakr” adlandırırdı [15, 13-20]. Silahlı qüvvələr dövlət mexanizminin elementlərinin dəstəyi və ictimaiyyətin mənəvi razılığı ilə yüzilliklər əvvəl böyük miqyaslı hərbi qarşıdurmada qələbə kimi adətən nəticələr əldə etməyə imkan verən parahərbi aksiyalar aparırlar. Öz həqiqi məqsədlərini növbəti qlobal təhdidlə mübarizə ehtiyacı ilə maskalayaraq regional və ya dünya hökmranlığına can atan dövlətlər öz hərəkətlərinə beynəlxalq cəmiyyət tərəfindən legitimlik əldə edə bilərlər.

Bir qayda olaraq, “müharibələrin mənəvi ekvivalenti” ifadəsi altında bir neçə dövlətin resurslarının cəmləşdirilməsini və onlar arasında yüksək əlaqələndirmə dərəcəsini tələb edən hadisələr, reaksiyalar nəzərdə tutulur. Bu cür təcrübənin nəticələrindən biri parahərbi hərəkətlərin məkan və zaman anlayışında qeyri-müəyyən sərhədlərə malik olmasıdır. Misal üçün, “qlobal istiləşmə” və ya “dünya terrorizmi” ilə mübarizə dəqiq coğrafi və ya zaman çərçivəsinə malik deyil. Bu cür aksiyalar bir neçə onilliklər boyu bütün fiziki məkanlarda aparıla bilər.

**Nəticə**

Yekun olaraq qeyd etmək olar ki, müasir siyasətdə hərbiləşmənin ən böyük təhlükəsi ondan ibarətdir ki, dolayı parahərbi hərəkətlər döyüşkənlik və təcavüz potensialını qoruyub saxlayır və təkrar istehsal edir. Yaxın gələcəkdə bu, XX əsrdə kütləvi qırğın silahlarının dağıdıcı xarakterini nəzərə alaraq, müəyyən dərəcədə yerini qeyri-hərbi vasitələrə verən tam silahlı mübarizə strategiyasının hökmranlığının qayıdışına səbəb ola bilər. Paradoksal vəziyyət yaranır: müasir silahların dağıdıcı imkanları sürətlə artır, lakin bu o demək deyil ki, o, real müharibədə tətbiq oluna bilər. Antaqonist ölkələrdə kütləvi qırğın silahlarının (KQS) olması onların istifadəsinə mane olur, çünki bu, qələbənin qiymətini azaldan fəlakətli nəticələrə səbəb ola bilər.

Kütləvi qırğın silahları bu gün də beynəlxalq siyasətdə çəkindirici faktor olaraq qalmaqdadır. Buna görə də XXI əsrdə ənənəvi silahlar aparıcı dövlətlərin geosiyasi maraqlarının yürüdülməsi üçün kifayət qədər effektiv deyil: onların dağıdıcı imkanları ağlabatan həddi keçib və mənəvi baxımdan əsaslandırıla bilməz. Kütləvi qırğın silahlarının ənənəvi növlərinin, habelə yüksəkdəqiqlikli silah növlərinin və “yeni fiziki prinsiplərə” uyğun silahların işlənib hazırlanması daha da artacaq və sürətlənəcək. Lakin bunlarla paralel olaraq informasiya-psixoloji müharibə, xüsusi əməliyyatlar və s. formada tətbiq edilən müxtəlif parahərbi texnologiyalar da inkişaf etdirilir. Onların bir çoxu o qədər spesifikdir ki, militarizm və hərbiləşmə ilə əlaqədar ictimai şüur tərəfindən qəbul edilmir. Əsrlər boyu açıq silahlı qarşıdurmada əldə edilmiş məqsədlər müasir beynəlxalq siyasətdə Sun Tzunun traktatlarında təsvir olunan “gizli müharibələr” üsulları ilə həyata keçirilir.

Aydındır ki, antimilitarist baxışlar humanizm ideallarına daha çox uyğun gəlsə də, müasir dünyada beynəlxalq siyasəti kökündən dəyişdirmək və ya hərbi amilin dünya siyasi prosesinə təsirini minimuma endirmək iqtidarında deyil. Militarizm getdikcə daha çox açıq formalardan qaçır, mahiyyətini gizlədir və ilk baxışdan hərbi işlərlə birbaşa əlaqəsi olmayan sferalara keçir. Daxili siyasətdə bu, hərbi nizam-intizam və tabeçilik prinsiplərindən istifadə edərək, hərbi-tətbiqi təhsil və təlim üsullarını yetişdirən hərbiləşdirilmiş, ilk növbədə, gəncləri özündə birləşdirən ictimai birliklərin yaradılmasında özünü göstərir.

Beynəlxalq siyasətdə militarizm dolayı yolla dünyanın əsas bölgələri üzərində nəzarətin qurulması üçün istifadə oluna bilən humanitar və sülhməramlı əməliyyatların aparılmasında özünü göstərir. Militarizmin inkişafında formal olaraq təlim və məsləhətləşmələrin verilməsi üçün yaradılan, əslində isə müstəmləkə dövlətlərinin vaxtilə qoşunlarına məxsus olan funksiyaları daşıyan özəl hərbi şirkətlər sektoru xüsusi rol oynayır. Anti-hərbi ictimai şüur militarizmin müxtəlif növlərinə diqqət yetirməli, onun təzahürlərini ətraflı öyrənməlidir.

Eyni zamanda məhz müharibə əleyhinə ictimai düşüncə hərbi idelogiyaların siyasi qərarların qəbul edilməsinə təsirinin mənəvi məhdudiyyəti kimi çıxış edəcəkdir. Müstəsna olaraq cəmiyyətdə təhsil səviyyəsinin artırılmasına ümid etmək olmaz, belə ki, müharibə aparmağın daha dağıdıcı və qeyri-insani üsulları yarımsavadlı şəxslər tərəfindən tətbiq edilməyib, indiki siyasətçilər və alimlər hərtərəfli savadlı insanlardır. Hərbiləşməyə qarşı mübarizə problemi kompleks şəkildə həll edilməlidir, bura hərbi gücdən istifadəni beynəlxalq hüquq normalarına tabe edən qanunvericilik tədbirləri, vətəndaşların məlumatlandırılması və maarifləndirilməsi imkanları daxildir.

## İstifadə olunmuş ədəbiyyat


1. Robert J. Bunker, "Epochal Change: War Over Social and Political Organization," Parameters 27, no. 2 (1997), doi:10.55540/0031-1723. 1821.s.12
2. Ralph Peters, "The New Warrior Class," Parameters 24, no. 1 (1994), doi:10.55540/0031-1723. 1713. s.72
3. Russell, James A. (2004) "Asymmetrical Warfare: Today’s Challenge to U.S. Military Power", Naval War College Review: Vol. 57: No. 1 , Article 19. s.27. Available at: https://digital-commons.usnwc.edu/nwc-review/vol57/iss1/19
4. J. William Fulbright “The arrogance of Power”. October 2018. s.248
5. Williams Andrew. Liberalism and war: the victors and vanquished (The new international relations). New York, London: Taylor and Francis Group, Routledge, 2006. s. 10 - 13.

6. David Boaz Key Concepts of Libertarianism by (New York: Simon & Schuster, 2015). See also www.libertarianism.org. s. 236.
7. Stephen F. Cohen. The New American Cold War with Russia. The Nationmagazine, July 10, 2006. s.2
8. Bacevich. Andrew The New American Militarism. How Americans are Seduced by War. Oxford, New-York: OxfordUniversuty Press, 2005. s. 2.
9. Bacevich. Andrew The New American Militarism. How Americans are Seduced by War. Oxford, New-York: OxfordUniversuty Press, 2005. s.12.
10. Eric E. Williams Speaks: Essays on Colonialism and Independence. s.15
11. The North Atlantic Treaty.Washington D.C. - 4 April 1949/ s.1. https://www.nato.int/cps/en/natohq/official_texts_17120.htm
12. William James. "The Moral Equivalent of War". Lecture 11 in Memories and Studies. New York: Longman Green and Co (1911): 267-296.
13. William James. "The Moral Equivalent of War". Lecture 11 in Memories and Studies. New York: Longman Green and Co (1911): 267-296.
14. William James. "The Moral Equivalent of War". Lecture 11 in Memories and Studies. New York: Longman Green and Co (1911): 267-296.
15. Jean Baudrillard. Simulacra and Simulation.The Body, in Theory: Histories of Cultural Materialism Series University of Michigan Press, 1994. s.13-20.

**Rəyçi : f.f.d., dosent Şölət Zeynalov**